



Məsul redaktor
Murtuz ƏLƏSGƏROV



# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

## II ÇAĞIRIŞ

# THE MILLI MEJLIS OF THE REPUBLIC OF AZERBAIJAN

## II CONVOCATION

**Azərbaycan Respublikası
Milli Məclisinin nəşri**

**Edition of the Milli Mejlis
of the Republic of Azerbaijan**

**Bakı - Baku, 2001**



**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**President of the Republic of Azerbaijan Heydar ALIYEV**

*Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər.*

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

***

*The source of power in Azerbaijan is its people and any power can be confirmed by the will of the people.*

**Mr. Heydar ALIYEV,**
**President of the Republic**
**of Azerbaijan**




**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Milli Məclisdə. 23-24 fevral 2001-ci il.**

**Mr. Heydar Aliyev, President of the Republic of Azerbaijan at the Milli Mejlis. February 23-24, 2001.**



**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Milli Məclisin sədri Murtuz Ələsgərov**

**Mr. Heydar Aliyev, President of the Republic of Azerbaijan and Mr. Murtuz Aleskerov, Chairman of the Milli Mejlis**



# YENİ PARLAMENT, YENİ VƏZİFƏLƏR

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası və demokratik əsaslarla seçilmiş ilk parlamenti ölkəmizin siyasi tarixində dirçəliş və inkişaf dövrünün başlandığını nümayiş etdirmişdir.

Ötən beş ildə Milli Məclis Konstitusiya ilə müəyyənləşdirilmiş səlahiyyətlərini yerinə yetirərək öz fəaliyyətini demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri üzərində qurmuşdur. Dövlət hakimiyyətinin üç şaxəsindən biri olan parlamentimiz qanun yaradıcılığı prosesində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, Nazirlər Kabineti, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, başqa mərkəzi və yerli icra, məhkəmə hakimiyyəti orqanları, aparıcı elm, təhsil, yaradıcılıq mərkəzləri ilə sıx qarşılıqlı əlaqə saxlamışdır.

Ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, Azərbaycanın Avropa xalqları ailəsinə inteqrasiyası, bu məqsədlə cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsi üçün hüquqi bazanın yaradılması, möhkəmləndirilməsi və təkmilləşdirilməsi vəzifəsini qarşıya qoyan parlamentimiz qanun yaradıcılığı işində dünyanın qabaqcıl demokratik ölkələrinin təcrübəsindən bəhrələnmiş, qanunvericilik fəaliyyətində istər kəmiyyət, istərsə də keyfiyyət göstəriciləri baxımından böyük nailiyyətlər qazanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev müstəqil dövlətimizin ilk parlamentinin səmərəli fəaliyyətini yüksək qiymətləndirmişdir. Milli Məclisin 2001-ci il 23 fevral tarixli iclasındakı nitqində o demişdir: "1995-ci ildə seçilmiş Milli Məclis Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün, hüquqi,

demokratik, dünyəvi dövlət quruculuğu prosesinin inkişafı üçün, sosial-iqtisadi, hüquqi-siyasi islahatların keçirilməsi üçün çox iş görmüşdür və görülən işlərin əsas mənası da qəbul olunmuş qanunlardır. Tam cəsarətlə deyə bilərəm ki, ötən beş il ərzində Azərbaycanın Milli Məclisi cox məhsuldar işləmiş, çox böyük əhəmiyyətə malik olan və mürəkkəb xarakter daşıyan qanunlar qəbul etmişdir. Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur. Eyni zamanda, Milli Məclis Azərbaycan dövlətinin xarici siyasətinin həyata keçirilməsində də parlamentlərarası əlaqələr vasitəsilə, başqa vasitələrlə bizim ümumi işimizə öz payını vermişdir. Ona görə biz dövlət müstəqilliyi əldə ediləndən sonra Azərbaycanın ilk Konstitusiyası əsasında seçilmiş Milli Məclisin, keçmişdə olan Milli Məclisin fəaliyyətini bu gün məmnuniyyət hissi ilə layiqincə qiymətləndirməliyik".

Birinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi öz səlahiyyəti dövründə 333 iclas keçirmiş, ümumən 948 sənəd, o cümlədən 798 qanun, 150 qərar və digər normativ hüquqi aktlar qəbul etmişdir. İnamla söyləmək olar ki, parlamentin hərtərəfli müzakirələrdən sonra qəbul etdiyi qanunvericilik aktları, o cümlədən Mülki Məcəllə, Mülki-Prosessual Məcəllə, İnzibati Xətalar Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, Cəzaların İcrası Məcəlləsi, Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Gömrük Məcəlləsi, Vergi Məcəlləsi, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillik haqqında", "Notariat haqqında" və yüzlərlə digər qanunlar Azərbaycanın demokratik yolla ardıcıl inkişafı üçün bütün hüquqi təminatları yaratmışdır.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, parlament Ermənistan



Respublikasının ölkəmizə təcavüzü, Azərbaycan torpaqlarının beşdə bir hissəsini işğal altında saxlaması, 1 milyon vətəndaşımızı yerindən-yurdundan didərgin salması barədə həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq, xalqımızın haqq işinin dünya miqyasında dəstəklənməsinə nail olmaq üçün mümkün olan bütün tədbirləri görmüş, müstəqil dövlətimizin xarici əlaqələrinin inkişafına və möhkəmləndirilməsinə dəyərli töhfələr vermişdir.

Birinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi öz öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirərək artıq tarixə çevrilmişdir. Ötən il noyabrın 5-də və bu il yanvarın 7-də keçirilmiş azad və ədalətli parlament seçkiləri ölkəmizdə demokratiyanın inkişafı, hüquqi dövlət quruculuğu yolunda irəliyə doğru mühüm addım olmuşdur. Seçicilərin yüksək fəallığı şəraitində ikinci çağırış Milli Məclisə respublikamızda fəaliyyət göstərən 9 siyasi partiyanın təmsilçiləri seçilmiş, ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası inandırıcı qələbə qazanaraq deputat mandatlarının əksəriyyətini əldə etmişdir.

Dövlət hakimiyyətinin nümayəndəli orqanı kimi parlamentimiz bütün mühüm sosial və siyasi mənafeləri təcəssüm etdirən, əhalinin çoxsaylı təbəqələrinin və qruplarının hamısının təmsil olunduğu bir qurumdur. Milli Məclisin intellektual potensialı onun qanun yaradıcılığı fəaliyyətinin hər cəhətdən uğurlu olacağına əminlik yaradır. Deputatlarımız arasında Azərbaycan Elmlər Akademiyasının 1 həqiqi və 1 müxbir üzvü, xarici ölkələrin elmlər və başqa akademiyalarının 8 həqiqi və 2 müxbir üzvü, 31 elmlər doktoru, 22 elmlər namizədi vardır. Azərbaycanın görkəmli ziyalıları, elm və mədəniyyət xadimləri, hüquqşünasları, iqtisadçıları, politoloqları, başqa peşə sahibləri parlamentdə təmsil olunaraq müstəqil dövlətimizin möhkəmlənməsi və inkişafı üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Parlamentə 13 nəfər qadının seçilməsi, ümumiyyətlə, Azərbaycan cəmiyyətində qadınların mühüm mövqe tutduqlarını, baş verən içtimai-siyasi proseslərdə fəal rol oynadıqlarını göstərir. Qadın deputatlarımız ilk günlərdən parlamentin

fəaliyyətinin bütün sahələrində yaxından iştirak edirlər.

Müstəqil dövlətimizin qanunvericilik orqanı öz işini Azərbaycan Respublikası Konstitusiyasının və Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunun tələbləri əsasında quraraq 11 daimi komissiya - Hüquq siyasəti və dövlət quruculuğu məsələləri, Təhlükəsizlik və müdafiə məsələləri, Aqrar siyasət, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr, Elm və təhsil məsələləri, İqtisadi siyasət, İnsan hüquqları, Mədəniyyət məsələləri, Regional məsələlər, Sosial siyasət, Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri komissiyaları yaratmışdır. Komissiyalar parlamentdə hazırlanan qanun və qərar layihələrini Milli Məclisin müzakirəsinə təqdim edir, qanunvericilik təşəbbüsü hüququ olan subyektlər tərəfindən göndərilmiş layihələrə dair rəy verirlər.

Milli Məclis parlamentlərarası münasibətləri inkişaf etdirmək məqsədi ilə dünyanın 60 ölkəsinin qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupları yaratmışdır. Deputatlarımız tez-tez xarici ölkələrdə səfərlərdə olur, müstəqil dövlətimizin qanunvericilik orqanının üzv olduğu beynəlxalq təşkilatların toplantılarında fəal iştirak edirlər.

Hazırda Azərbaycan Respublikasının Milli Məclisi Parlamentlərarası İttifaqın, ATƏT-in Parlament Assambleyasının, Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin, MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin və digər nüfuzlu beynəlxalq qurumların üzvüdür.

1996-cı ilin iyun ayından bəri Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti xüsusi dəvət olunmuş qonaq statusu ilə Avropa Şurası Parlament Assambleyasının iclaslarında iştirak edirdi. Bu il yanvarın 17-də Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycan Respublikasının bu nüfuzlu beynəlxalq təşkilata tam hüquqlu üzvlüyə qəbul olunması barədə qərar qəbul etmişdir.



2001-ci il yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin iştirakı ilə Strasburqda Avropa Şurasının binası önündə müstəqil dövlətimizin üçrəngli bayrağının ucaldılması Azərbaycanın Avropa ailəsinə qovuşduğunu bütün dünyaya nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisini Avropa Şurasının Parlament Assambleyasında təmsil etmək üçün deputat İlham Əliyevin rəhbərliyi ilə daimi nümayəndə heyəti yaradılmışdır. Nümayəndə heyətinin tərkibinə parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının sədri Səməd Seyidov, deputatlardan Gültəkin Hacıyeva, Nairə Şahtaxtinskaya, Vaqif Vəkilov, Qulamhüseyn Əliyev daxildirlər. Bundan başqa, 6 deputatdan ibarət əvəzedici heyət də yaradılmışdır.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin işə başlaması ölkəmiz üçün əlamətdar bir dövrə təsadüf etmişdir. Bu gün Azərbaycan Cənubi Qafqaz bölgəsində mühüm geosiyasi mövqe tutan, hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi yolunda qazandığı uğurları ilə dünyanın diqqətini özünə cəlb edən gənc müstəqil dövlətdir. Müstəqil dövlətimizin qanunvericilik sahəsində hər cür mürəkkəb vəzifənin öhdəsindən gəlməyə qadir olan səriştəli parlamenti formalaşmışdır.

Görüləsi işlər isə çoxdur. İkinci çağırış Milli Məclisin fəaliyyətinin mühüm istiqamətlərindən birini ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlətin qurulmasını təsbit edən, qanunun aliliyi üçün təminatları möhkəmləndirən yeni qanunvericilik aktlarının hazırlanıb qəbul olunması təşkil etməlidir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası BMT-nin və Avropa Şurasının insan hüquqları və azadlıqları haqqında bir sıra konvensiyalarına qoşulmuşdur. Bununla əlaqədar, yeni parlamentin qarşısında duran ən vacib vəzifələrdən biri də insan hüquqlarını və azadlıqlarını təmin edən beynəlxalq hüquq normalarının milli qa-

nunvericiliyə daxil edilməsindən, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında qanunun qəbul edilməsindən ibarət olacaqdır.

Parlament ölkəmizdə vətəndaş cəmiyyətinin inkişaf etdirilməsinə, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə, bazar iqtisadiyyatının bərqərar olması məqsədi ilə əsaslı islahatların ardıcıl surətdə davam etdirilməsinə, özəlləşdirmənin ikinci proqramının həyata keçirilməsinə, yeni neft strategiyamızın uğurlarının artırılmasına, torpaq islahatının başa çatdırılmasına, aqrar bölmədə ərzaq müstəqilliyinin möhkəmləndirilməsinə yönəldilən qanunların qəbul edilməsinə xüsusi diqqət yetirməli, qüvvədə olan qanunvericiliyin yeni qəbul edilmiş Mülki Məcəlləyə uyğunlaşdırılması, mülki dövriyyənin bütün iştirakçılarının hüquq və vəzifələrinin təmin olunması üçün zəruri qanunvericilik aktlarını hazırlayıb qəbul etməlidir.

Milli Məclis ən böyük dərdimiz olan Dağlıq Qarabağ probleminin respublikamızın ərazi bütövlüyünün qorunması şərti ilə nizama salınması üçün möhtərəm Prezidentimiz Heydər Əliyevin həyata keçirdiyi siyasəti bundan sonra da fəal surətdə dəstəkləyəcək, erməni işğalı nəticəsində yerindən-yurdundan didərgin düşmüş qaçqınlara və məcburi köçkünlərə, eləcə də əhalinin yoxsul təbəqələrinə, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göstərilməsini, xalqın güzəranının yaxşılaşdırılmasını təmin edən yeni qanunvericilik aktları qəbul edəcəkdir. Dövlətimizin gənclər və qadın siyasətinin həyata keçirilməsi, idmana diqqətin artırılması, Sidney olimpiya oyunlarında və başqa beynəlxalq yarışlarda qazandığımız böyük uğurların davam etdirilməsi üçün zəruri qanunvericilik tədbirləri görülməlidir.

Parlament respublikamızda müvəffəqiyyətlə həyata keçirilən hüquq islahatlarının başa çatdırılmasına, ölkəmizin Avropa ilə inteqrasiyasının möhkəmləndirilməsinə yönəldilən yeni qanunlar qəbul edəcəkdir.

Beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrin daha da inkişaf



etdirilməsi sahəsində də Milli Məclisin üzərinə böyük məsuliyyət düşür. Bu məqsədlə Azərbaycanın başqa beynəlxalq təşkilatlara daxil olması üçün müvafiq qanunvericilik tədbirləri görüləcəkdir.

Milli Məclisin Aparatı səriştəli və bacarıqlı kadrlar hesabına daha da gücləndiriləcək, parlamentin kitabxanası və muzeyi zənginləşdiriləcək, struktur bölmələrindən internet şəbəkəsinə çıxış genişləndiriləcəkdir.

Müstəqil dövlətimizin qanunvericilik orqanının bütün fəaliyyəti dövlətimizin və xalqımızın ehtiyacları və tələbatı üzərində qurulmalı, öz işi ilə Milli Məclis dünyanın inkişaf etmiş parlamentləri səviyyəsinə yüksəlməlidir. İnanıram ki, yeni parlament Azərbaycan Respublikasının inkişafına dəyərli töhfələr vermək üçün öhdəsinə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin aşağıdakı sözləri bütün deputatlarımızın ürəyindən xəbər verir: “Tam əminəm ki, işinə yeni başlamış Milli Məclis keçən dövrdən də məhsuldar işləyəcək və əldə olunmuş təcrübədən səmərəli istifadə edəcəkdir. Beləliklə, Azərbaycanda dövlət müstəqilliyinin daha da möhkəmlənməsi və müstəqil dövlətin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün ali qanunvericilik orqanı kimi öz üzərinə düşən vəzifələri yerinə yetirəcəkdir”.

**Murtuz ƏLƏSGƏROV,**
**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri**

# NEW PARLIAMENT, NEW OBJECTIVES

The new Constitution of the independent Republic of Azerbaijan, drafted by the commission headed by Mr. Heydar Aliyev, the President of the Republic of Azerbaijan and adopted through the referendum on November 12, 1995 and the first parliament elected on the basis of democratic principles clearly demonstrated the beginning of progress and development in the political history of our country.

Having fulfilled its powers set out by the Constitution during the last 5 years, the Milli Mejlis (National Assembly) functioned on the basis of democracy, multiparty system, pluralism and rule of law. As one of the 3 branches of the state power, the parliament closely cooperated with different bodies of the state such as President's Office of the Republic of Azerbaijan, the Cabinet of Ministers, Constitutional Court, Supreme Court, other central and local executive bodies, courts, leading scientific, educational and artistic centers.

Our parliament has benefited from the experiences of the leading democratic states of the world in law drafting and achieving great results both in respect of quantity and quality in the field of legislation. Obviously the parliament aims at establishment of a state ruled by law, a civil society, and principles of Market Economy, to deepen integration with the European peoples family and respectively to develop, strengthen and improve legal framework for conducting reforms in all fields of the state.

Mr. Heydar Aliyev, the President of the Republic of Azerbaijan highly appreciated the fruitful activity of the first parliament of the independent state. In his speech delivered at the meeting of the Milli Mejlis on February 23, 2001 he said: "The Milli Mejlis elected in 1995 has done a great job for strengthening the independence of Azerbaijan, for ensuring a secular, democratic state ruled by law, for



implementing social-economic, judicial-political reforms and the result of all these works has been the adoption of laws. I can stress that, the Milli Mejlis of Azerbaijan produced a very fruitful work during the last 5 years and adopted very important laws. All these laws contributed to the further development of the independent state, implementation of economic reforms, insurance of rule of law, strengthening of the democratic principles in the state. At the same time, the Milli Mejlis also has made its contribution into our common goals in fulfillment of our foreign policy through inter-parliamentary ties and other remedies. Therefore with a great pleasure today we have to appraise the activity of the Milli Mejlis that was elected on the basis of the first Constitution of Azerbaijan."

During its terms of power, the first convocation of the Milli Mejlis of the Republic of Azerbaijan held 333 plenary sessions, in general adopted 798 laws, 150 decisions and normative judicial acts. With a confidence, we can say that, the legislative acts, including Civil Code, Civil Procedural Code, Administrative Offenses Code, Criminal Code, Criminal Procedural Code, Execution of Penalty Code, Labor Code, Family Code, Customs Code, Tax Code, Laws "on Citizenship", "on Freedom of Assembly", "on Mass Media", "on Freedom of Information", "on Status of Refugees and Internally Displaced Persons", "on Constitutional Court", "on Judges and Courts", "on Prosecutor's Office', "on Police", "on Advocacy", "on Notary", and hundreds of other laws which were adopted after thorough and comprehensive debates in the parliament have provided all judicial provisions for the further democratic development of Azerbaijan.

Besides the legislative activity, the parliament has undertaken all possible measures to reveal to international Community the facts regarding the aggression of the Republic of Armenia against our country, occupation of 1/5 of our territory, which resulted in displacement of one million of our citizens from their homelands, to get our just position supported by the world, and greatly contributed

towards expanding and strengthening our external ties with the countries of the world.

The first convocation of the Milli Mejlis of the Republic of Azerbaijan honored its tasks and has already become part of our history. Fare and open parliamentary elections held on November 5, 2000 and January 7, 2001 were important steps towards the development of democracy and strengthening of rule of law. As a result of these elections held with an active participation of constituencies, representatives of 9 political parties were elected to the Milli Mejlis of our Republic, and the leading political force of our country – the New Azerbaijan Party won the majority of mandates.

As an elective body of the state power our parliament is one of the 3 branches of the power representing social and political interests of all layers and social and political groups of the population in the country. The intellectual potential of the Milli Mejlis assures us to be credible for the successful activity of the parliament. The composition of the parliament is as follows: one member and one correspondent member of the Academy Sciences of Azerbaijan, 8 members and 2 correspondent members of the Academies of foreign countries and other Academies, 31 doctors, 22 candidates of sciences. The outstanding intelligentsia of Azerbaijan, well known figures in the field of science and culture, lawyers, economists, scholars, politicians and others represented in the parliament do their best in strengthening the democratic principles of our state. Election of 13 women members to the parliament is another proof of the fact that, women hold an important position in Azerbaijan and that they play an active role in the social-political life of our society. Women members of the parliament closely participate in all the spheres of the parliamentary activity.

The work of the parliament of our sovereign state is based upon and regulated by the Constitution of the Republic of Azerbaijan, the Regulatory Charter of the Milli Mejlis of the Republic of Azerbaijan, and the law on " the Status of Members of Parliament



of the Republic of Azerbaijan". The following 11 standing commissions have been set up in the parliament: Commissions on Legal Policy; Security and Defense; Agrarian Policy; Foreign Affairs and Inter-Parliamentary Relations; Science and Education; Economic Policy; Human Rights; Culture; Regional Affairs; Social Policy; Natural Resources, Energy and Ecology. All these commissions submit draft laws and decisions prepared in the parliament to the Milli Mejlis, give their opinion to drafts submitted by the subjects having the rights to legislative initiative.

In order to foster the Inter-Parliamentary relations the Milli Mejlis has established working groups with parliaments of 60 countries of the world. Members of the Milli Mejlis very often pay visits to different countries and take an active part in gatherings and meetings held in the framework of International organizations that our parliament has acceded to.

Today the Milli Mejlis of the Republic of Azerbaijan is a member of Inter-Parliamentary Union, the Parliamentary Assembly of OSCE, the Parliamentary Assembly of Black Sea Economic Cooperation, the Parliamentary Assembly of CIS, the Parliamentary Assembly of the Organization of Islamic Conference and other influential international institutions.

Since June 1996, the delegation of the Milli Mejlis of the Republic of Azerbaijan had been participating in the plenary sessions of the Parliamentary Assembly of the Council of Europe with a status of special guest. On January 17, 2001 the Committee of the Ministers of the Council of Europe took a decision on the accession of the Republic of Azerbaijan to this organization. The fact of raising the 3 color flag of Azerbaijan on January 25, 2001 in front of the premises of the Council of Europe with the participation of Mr. Heydar Aliyev, the President of the Republic of Azerbaijan was a clear demonstration of integration of Azerbaijan with the European Family.

Under the leadership of Mr. Ilham Aliyev, the member of the

Parliament, a permanent delegation of the Milli Mejlis to the Parliamentary Assembly of the Council of Europe represents the Republic of Azerbaijan in this organization. The composition of the delegation is as following:

Mr. Samad Seyidov – Chairman of the Standing Commission on Foreign Affairs and Inter-Parliamentary Relations, Ms. Gultakin Hajiyeva, Ms. Naira Shakhtakhtinskaya, Mr. Vagif Vakilov, Mr. Gulamhusseyn Aliyev. Besides them, 6 members of the parliament are substitute members of the Milli Mejlis to the PACE.

The Second Convocation of the Milli Mejlis of the Republic of Azerbaijan began its work in a very momentous period. Today Azerbaijan is a sovereign state located in a very important geo-political position in the Southern Caucasus makes a successful progress among other states of the world in strengthening the rule of law, building a civil society, developing market oriented economy. Apart from this, the legislative body of our state capable to achieve any complex objectives has already been formed.

There is a lot of work to be done. One of the main activities of the Second Convocation of the Milli Mejlis should be to draft and to adopt new laws ensuring democratic and secular state, strengthening rule of law.

It is obvious that, the Republic of Azerbaijan has acceded to a number of conventions of the UN and the Council of Europe ensuring human rights and fundamental freedoms. In this regard, one of the most important objectives before the parliament will be transformation of the principles of the International Law ensuring human rights and freedoms into the national legislation and adoption of the Law on Ombudsman.

The Parliament of the Republic of Azerbaijan should pay a due attention to adoption of laws aimed at strengthening of the civil society in our country, intensifying the fight against corruption, economic reforms, implementation of the second part of the privatization program, adding successes to the new oil strategy, finalizing the



land reforms, strengthening of the food security in the agrarian sector. It also should draft and pass necessary legislative acts for harmonizing the legislation in force with the newly adopted Civil Code and for providing framework to ensure civil rights and obligations of all individuals and legal entities.

The Milli Mejlis will further actively support the policy of peaceful settlement of the Nagorny Karabakh conflict conducted by Mr. Heydar Aliyev, the President of the Republic of Azerbaijan aimed at insuring the territorial integrity of our Republic, and is committed to adopt laws insuring care for refugees and internally displaced persons expelled from their homelands as a result of the Armenian occupation as well as for the poor segments of the population, children deprived of parents' care and to improve living standards of the people. Necessary legislative measures should be undertaken in order to carry out our national policy in respect of youth and women, to foster interest in sport, to further continue our success gained in the Sydney Olympic Games and other international sport competitions.

The Parliament of Azerbaijan is determined to adopt new laws aimed at successful implementation of judicial reforms and integration with Europe.

The Milli Mejlis is also responsible for tasks to further develop and deepen international bilateral and multilateral relations. In this contest appropriate legislative measures will be taken to promote the accession of Azerbaijan to other international organizations.

Some more capable and experienced staff will be employed to the Secretariat of the Milli Mejlis. Library and Museum of the Parliament will be enriched. Internet access will be more available for all departments and sections.

The whole activity of the legislature should focus on needs and requirements of our state and people and the work of this body should be of standard of the parliaments of the developed countries. I believe that, the new Parliament will honor all its duties and tasks

and make valuable contributions to further development of the Republic of Azerbaijan. The following words delivered by Mr. Heydar Aliyev, the President of the Republic of Azerbaijan are encouraging all the parliamentarians: ‘I am very confident that, the Milli Mejlis that recently began its work will produce more fruitful results in comparison to the past convocation and make an effective use of the existing experience. So, the Parliament will honor its commitments and tasks as a supreme legislature for strengthening of the state independence of Azerbaijan and fulfillment of its tasks before the sovereign state’.

**Murtuz ALESKEROV,**
**Chairman of Milli Mejlis of**
**the Republic of Azerbaijan**



# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ DEPUTATLARININ QISA BİOQRAFİYALARI

***

# CURRICULUM VITAES OF THE DEPUTIES OF THE MILLI MEJLIS OF THE REPUBLIC OF AZERBAIJAN

*ABBASOV*
*Əli Məmməd oğlu*



*Ali M. ABBASOV*

1953-cü il yanvarın 1-də Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Şahbuz kəndində anadan olmuşdur. Moskva Energetika İnstitutunun avtomatika və hesablama texnikası fakültəsini bitirmişdir. Texnika elmləri doktoru, professordur. Beynəlxalq İnformatizasiya Akademiyasının və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvüdür. Rus və ingilis dillərini bilir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

2000-ci il noyabrın 5-də 28 saylı Səbail seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür. Avropa Şurasının Parlament Assambleyasında Milli Məclisin daimi nümayəndə heyəti üzvünün əvəzedicisidir.

Evlidir, 2 övladı var.

* * *

Born: January 1, 1953, the village of Shahbuz of the district of Shahbuz, Autonomous Republic of Nakhchivan. Graduated from Moscow Energetic Institute, Automation and Computer Techniques Department. Doctor of Technical Sciences, Professor. Member of the International Information Academy and New-York Academy of Sciences. Foreign languages: Russian and English.

Member of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Sabail Constituency No. 28. Member of the Standing Commission of the Milli Mejlis on Security and Defense. Substitute member of the Permanent Delegation of the Milli Mejlis to the Parliamentary Assembly of the Council of Europe.

Married with 2 children.



*ABBASOV*
*Mirmövsüm Kamil oğlu*

*Mirmovsum*
*K. ABBASOV*

1955-ci il oktyabrın 3-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində anadan olmuşdur. Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsini, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqrar-sənaye kompleksinin iqtisadiyyatı fakültəsini və Bakı Ali Partiya Məktəbini bitirmişdir. Rus dilini bilir.

Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının sədridir.

2000-ci il noyabrın 5-də 69 saylı İsmayıllı seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

* * *

Born: October 3, 1955, the village of Gubakhalilli, the District of Ismayilli. Graduated from Azerbaijan State Institute of Art, Department of Culture and Enlightenment, Agrarian-Industrial Unit of Azerbaijan Agriculture Institute, Economic Department and Baku Higher Party School. Foreign languages: Russian.

Chairman of the Ismayilli District Division of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Ismayilli Constituency No. 69. Member of the Standing Commission of the Milli Mejlis on Agrarian Policy.

Married with 2 children.





*ABIYEV*
*Əhəd Mikayıl oğlu*

*Ahad M. ABIYEV*

1958-ci il yanvarın 15-də Masallı şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat və planlaşdırma fakültəsini və Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

2000-ci il noyabrın 5-də 77 saylı Masallı şəhər seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

* * *

Born: January 15, 1958, the city of Masalli. Graduated from Azerbaijan Economic Institute, Economic and Planning Department, and Baku State University, Law Department. Foreign languages: Russian and English.

Member of the New Azerbaijan Party.

Was a member of the I convocation of the Milli Mejlis of the Republic of Azerbaijan.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Masalli Town Constituency No. 77. Member of the Standing Commission of the Milli Mejlis on Regional Affairs.

Married with 2 children.



*AĞALAROV*
*Rifət Nurəddin oğlu*

*Rifat N. AGHALAROV*

1952-ci il aprelin 19-da Salyan şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsini və Bakı Ali Partiya məktəbini bitirmişdir. Rus dilini bilir.

Azərbaycan Milli İstiqlal Partiyasının üzvüdür.

2000-ci il noyabrın 5-də 84 saylı Salyan seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

* * *

Born: April 19, 1952, the city of Salyan. Graduated from Azerbaijan Economic Institute, Department of Commodity Researcher and Baku Higher Party School. Foreign languages: Russian.

Member of the National Independence Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Salyan Constituency No. 84. Member of the Standing Commission of the Milli Mejlis on Economic Policy.

Married with 3 children.



*AĞAMALI*
*Fəzail Rəhim oğlu*



*Fazail R. AGHAMALI*

1947-ci il avqustun 26-da Ermənistan Respublikası Sisian rayonunun Qızıl Şəfəq kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Tarix elmləri namizədi, dosentdir. Rus dilini bilir.

Ana Vətən Partiyasının sədridir.

Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

2000-ci il noyabrın 5-də 30 saylı Yevlax seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

* * *

Born: August 26, 1947, the village of Gizil Shafag of the district of Sisyan, the Republic of Armenia. Graduated from Azerbaijan State University, Department of History. Candidate of History, Associate Professor. Foreign languages: Russian.

Chairman of the Motherland Party.

Was a member of the I convocation of the Milli Mejlis of the Republic of Azerbaijan.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Yevlakh Constituency No 30. Member of the Standing Commission of the Milli Mejlis on Legal Policy and Institutional Building.

Married with 3 children.



*AĞAZADƏ*
*İqbal Fehruz oğlu*

*Igbal F. AGHAZADA*

1968-ci il sentyabrın 18-də Füzuli rayonunun Merdinli kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini və Kiyev Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Rus, ingilis, ərəb və fars dillərini bilir.

2001-ci il yanvarın 7-də 10 saylı Xətai ikinci seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür.

Evlidir.

* * *

Born: September 18, 1968, the village of Merdinli of the district of Fuzuli. Graduated from Baku State University, Oriental Studies Department and Kiev State University, Law Department. Foreign languages: Russian, English, Arabic and Persian.

Elected to the Milli Mejlis: January 7, 2001 from the Second Khatai Constituency No. 10. Member of the Standing Commission of the Milli Mejlis on Human Rights.

Married.



*AXUNDZADƏ*
*Anar Seyran oğlu*



*Anar*
*S. AKHUNDZADA*

1972-ci il iyulun 6-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan Dövlət Universitetinin kənd təsərrüfatı və hüquq fakültələrini bitirmişdir. Rus dilini bilir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

2000-ci il noyabrın 5-də 3 saylı Naxçıvan şəhər seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür.

Evlidir, 1 övladı var.

* * *

Born: July 6, 1972, the city of Nakhchivan. Graduated from Nakhchivan State University, Department of Agriculture and Department of Law. Foreign languages: Russian.

Member of the Political Council of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Nakhchivan City Constituency No. 3. Member of the Standing Commission of the Milli Mejlis on Agrarian Policy.

Married with 1 child.



*ALLAHVERDİYEV*
*Rəfael Xanəli oğlu*

*Rafael*
*Kh. ALLAHVERDIYEV*

1945-ci il mayın 9-da Bakı şəhərində anadan olmuşdur. Moskva İctimai Elmlər Akademiyasının mətbuat işçiləri fakültəsini və Bakıdakı Qərb Universitetinin xarici iqtisadi əlaqələr fakültəsini bitirmişdir. İşgüzar inzibatçılıq üzrə magistrdir. Rus dilini bilir.

Yeni Azərbaycan Partiyası sədrinin müavinidir.

Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

2000-ci il noyabrın 5-də 25 saylı Nərimanov ikinci seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

* * *

Born: May 9, 1945, the city of Baku. Graduated from Moscow Academy of Social Sciences, Mass Media Staff Department, and Western University in Baku, Foreign Economic Relations Department. Master of Science in Buisness Administration. Foreign languages: Russian.

Deputy Chairman of the New Azerbaijan Party.

Was a member of the I convocation of the Milli Mejlis of the Republic of Azerbaijan.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Second Narimanov Constituency No. 25. Member of the Standing Commission of the Milli Mejlis on Regional Affairs.

Married with 3 children.



*ALOVLU*
*Xıdır Binnət oğlu*



*Khidir B. ALOVLU*

1939-cu il martın 2-də Ermənistan Respublikası Kirovakan rayonunun Gözəldərə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Rus dilini bilir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

2000-ci il noyabrın 5-də 39 saylı Sumqayıt ikinci seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin İqtisadi siyasət daimi komissiyasının üzvüdür.

Evlidir, 4 övladı var.

* * *

Born: March 2, 1939, the village of Gozaldara of the district of Kirovakan, the Republic of Armenia. Graduated from Azerbaijan State University, Department of Philology. Foreign languages: Russian.

Member of the Political Council of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Sumgait Second Constituency No. 39. Member of the Standing Commission of the Milli Mejlis on Economic Policy.

Married with 4 children.



*ASLANOVA*
*Rəbiyyət Nurullah qızı*

*Rabiyyat*
*N. ASLANOVA*

1951-ci il iyulun 4-də Kəlbəcər şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Fəlsəfə elmləri namizədi, dosentdir. Rus və ingilis dillərini bilir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

2000-ci il noyabrın 5-də 54 saylı Balakən seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin İnsan hüquqları daimi komissiyası sədrinin müavinidir.

Evlidir, 3 övladı var.

* * *

Born: July 4, 1951, the town of Kalbajar. Graduated from Azerbaijan State University, Department of History. Candidate of Philosophy, Associate Professor. Foreign languages: Russian and English.

Member of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Balakan Constituency No. 54. Deputy Chairman of the Standing Commission of the Milli Mejlis on Human Rights.

Married with 3 children.



*BAXIŞOV*
*Hüseynağa Eynulla oğlu*

*Huseynagha*
*E. BAKHISHOV*



1960-cı il aprelin 1-də Quba şəhərində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Kənd təsərrüfatı elmləri namizədidir.

Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədridir.

2000-ci il noyabrın 5-də 63 saylı Quba seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

* * *

Born: April 1, 1960, the town of Guba. Graduated from Azerbaijan Agriculture Institute, Department of Agronomy and Baku Institute of Social Administration and Political Sciences. Candidate of Agricultural Sciences.

Chairman of the Guba District Division of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Guba Constituency No. 63. Member of the Standing Commission of the Milli Mejlis on Agrarian Policy.

Married with 3 children.



*BAXŞƏLİYEVA*
*Gövhər Baxşəli qızı*

*Govhar*
*B. BAKHSHALIYEVA*

2001-ci il iyunun 12-dən Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavinidir.

1954-cü il noyabrın 26-da Bərdə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. Filologiya elmləri doktorudur. Rus, ingilis və ərəb dillərini bilir.

Bitərəfdir.

2000-ci il noyabrın 5-də 57 saylı Bərdə-Ağcabədi seçki dairəsindən deputat seçilmişdir.

1 övladı var.

* * *

Vice-Chairman of the Milli Mejlis of the Republic of Azerbaijan: Since June 12, 2001.

Born: November 26, 1954, the town of Barda. Graduated from Azerbaijan State University, Oriental Studies Department. Doctor of Philology. Foreign languages: Russian, English and Arabic.

Independent.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Barda-Agjabadi Constituency No. 57.

Has 1 child.





*CƏBİYEV*
*Rizvan İsrafil oğlu*

*Rizvan I. JABIYEV*

1940-cı il dekabrın 5-də Kürdəmir rayonunun Axtaçı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsini bitirmişdir. Rus dilini bilir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

2000-ci il noyabrın 5-də 72 saylı Kürdəmir seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri daimi komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

* * *

Born: December 5, 1940, the village of Akhtachi of the district of Kurdamir. Graduated from Azerbaijan Pedagogical Institute, Department of History-Philology. Foreign languages: Russian.

Member of the New Azerbaijan Party.

Was a member of the I convocation of the Milli Mejlis of the Republic of Azerbaijan.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Kurdamir Constituency No. 72. Member of the Standing Commission of the Milli Mejlis on Security and Defense.

Married with 3 children.



*CƏFƏROV*
*Nizami Qulu oğlu*

*Nizami G. JAFAROV*

1959-cu il sentyabrın 21-də Ağstafa rayonunun Zəlimxan kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Respublikanın əməkdar elm xadimidir. Lütfizadə adına Beynəlxalq Akademiyanın həqiqi üzvüdür. Rus, ingilis və fars dillərini bilir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

2000-ci il noyabrın 5-də 50 saylı Ağstafa seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

* * *

Born: September 21, 1959, the village of Zalimkhan of the district of Aghstafa. Graduated from Azerbaijan State University, Department of Philology. Doctor of Philology, Professor. Honored Science Figure of the Republic. Member of the International Academy named after Lutfizada. Foreign languages: Russian, English and Persian.

Member of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Aghstafa Constituency No. 50. Member of the Standing Commission of the Milli Mejlis on Culture.

Married with 2 children.





*ƏBDÜLƏZİMOV*
*Nağı Kərim oğlu*

*Naghi*
*K. ABDULAZIMOV*

1936-cı il dekabrın 15-də Ermənistan Respublikası Basarkeçər rayonunun Zod kəndində anadan olmuşdur. Gəncə Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini və Bakı Ali Partiya məktəbini bitirmişdir. Rus və erməni dillərini bilir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

2000-ci il noyabrın 5-də 31 saylı Kəpəz seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin İnsan hüquqları daimi komissiyasının üzvüdür.

Evlidir, 4 övladı var.

* * *

Born: December 15, 1936, the village of Zod of the district of Basarkechar, the Republic of Armenia. Graduated from Ganja State Pedagogical Institute, Department of Philology and Baku Higher Party School. Foreign languages: Russian and Armenian.

Member of the Political Council of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Kapaz Constituency No. 31. Member of the Standing Commission of the Milli Mejlis on Human Rights.

Married with 4 children.



*ƏHMƏDOV*
*Əli Cavad oğlu*

*Ali J. AHMADOV*

1953-cü il yanvarın 27-də Ermənistan Respublikası Basarkeçər rayonunun Dərə kəndində anadan olmuşdur. Moskva Dövlət Tarix-Arxiv İnstitutunun tarix fakültəsini bitirmişdir. Fəlsəfə elmləri namizədi, dosentdir. Rus dilini bilir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü, partiyanın icra katibidir.

2000-ci il noyabrın 5-də Yeni Azərbaycan Partiyasının siyahısı üzrə deputat seçilmişdir. Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

* * *

Born: January 27, 1953, the village of Dara of the district of Basarkechar, the Republic of Armenia. Graduated from Moscow State History-Archive Institute, Department of History. Candidate of Philosophy, Associate Professor. Foreign languages: Russian.

Member of the Political Council and Board of Directors of the New Azerbaijan Party, Executive Secretary of the Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the New Azerbaijan Party list. Member of the Standing Commission of the Milli Mejlis on Science and Education.

Married with 2 children.





*ƏHMƏDOV*
*Ramiz Haşım oğlu*

*Ramiz H. AHMADOV*

1939-cu il martın 6-da Quba rayonunun Zizik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini və Moskva İctimai Elmlər Akademiyasını bitirmişdir. Fəlsəfə elmləri namizədidir. Rus dilini bilir.

Azərbaycan Kommunist Partiyasının sədridir.

2000-ci il noyabrın 5-də Azərbaycan Kommunist Partiyasının siyahısı üzrə deputat seçilmişdir. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

* * *

Born: March 6, 1939, the village of Zizik of the district of Guba. Graduated from Azerbaijan State University, Department of Journalizm and Moscow Academy of Social Sciences. Candidate of Philosophy. Foreign languages: Russian.

Chairman of Azerbaijan Communist Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from Azerbaijan Communist Party list. Member of the Standing Commission of the Milli Mejlis on Legal Policy and Institutional Building.

Married with 3 children.

## ƏHMƏDOVA
*Gülər Mikayıl qızı*



**Gular M. AHMADOVA**

1965-ci il avqustun 20-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Respublika Uşaq Təşkilatının sədridir. Rus və ingilis dillərini bilir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

2000-ci il noyabrın 5-də 8 saylı Yasamal-Nəsimi seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Sosial siyasət daimi komissiyasının üzvüdür. Milli Məclisin İntizam komissiyasının katibidir.

Evlidir, 2 övladı var.

* * *

Born: August 20, 1965, the city of Baku. Graduated from Azerbaijan State Pedagogical Institute, Department of Mathematics, with Honors Degree. Chairperson of Children Organization of the Republic. Foreign languages: Russian and English.

Member of the Political Council of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Yasamal-Nasimi Constituency No. 8. Member of the Standing Commission of the Milli Mejlis on Social Policy. Secretary of the Commission of the Milli Mejlis on Discipline.

Married with 2 children.



## ƏLƏSGƏROV
*Xalis Ələs oğlu*



**Khalis A. ALESKEROV**

1948-ci il oktyabrın 1-də Samux rayonunun Qarabağlı kəndində anadan olmuşdur. Ümumittifaq Yeyinti Sənayesi İnstitutunun iqtisadiyyat fakültəsini və Bakı Ali Partiya məktəbini bitirmişdir. Rus dilini bilir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

2000-ci il noyabrın 5-də 85 saylı Samux-Şəmkir-Goranboy seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Aqrar siyasət daimi komissiyasının üzvüdür.

Evlidir, 1 övladı var.

* * *

Born: October 1, 1948, the village of Garabaghli of the district of Samukh. Graduated from the All-Union Institute of Food Industry, Department of Economy and Baku Higher Party School. Foreign languages: Russian.

Member of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the Samukh-Shamkir-Goranboy Constituency No. 85. Member of the Standing Commission of the Milli Mejlis on Agrarian Policy.

Married with 1 child.

*ƏLƏSGƏROV*
*Murtuz Nəcəf oğlu*



*Murtuz*
*N. ALESKEROV*

1996-cı il oktyabrın 16-dan Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsində çalışmış, 2000-ci il noyabrın 24-də yenidən Milli Məclisin sədri seçilmişdir.

1928-ci il sentyabrın 20-də Gəncə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Hüquq elmləri doktoru, professordur. Beynəlxalq Hüquq Assosiasiyasının üzvüdür. Respublikanın əməkdar hüquqşünasıdır. "İstiqlal" ordeni ilə təltif edilmişdir. Rus və ingilis dillərini bilir.

Yeni Azərbaycan Partiyası sədrinin müavinidir.

2000-ci il noyabrın 5-də Yeni Azərbaycan Partiyasının siyahısı üzrə deputat seçilmişdir.

Evlidir, 3 övladı var.

* * *

Worked in his capacity as a Chairman of the Milli Mejlis of the Republic of Azerbaijan since October 16, 1996. Re-elected as a Chairman of the Milli Mejlis: November 24, 2000.

Born: September 20, 1928, the city of Ganja. Graduated from Azerbaijan State University, Law Department. Doctor of Law, Professor. Member of the International Law Association. Honoured Lawyer of the Republic. Received award: The Order of "Istiglal" (Independence). Foreign languages: Russian and English.

Deputy Chairman of the New Azerbaijan Party.

Elected to the Milli Mejlis: November 5, 2000 from the New Azerbaijan Party list.

Married with 3 children.



*ƏLİRZAYEV*
*Əli Qənbərəli oğlu*



*Ali G. ALIRZAYEV*

1945-ci il martın 30-da Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun avtomatika və hesablama texnikası fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. Rus və fransız dillərini bilir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

2000-ci il noyabrın 5-də 4 saylı Babək-Şahbuz seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin İqtisadi siyasət daimi komissiyası sədrinin müavinidir.

Evlidir, 3 övladı var.

* * *

Born: March 30, 1945, the village of Nehram of the district of Babek, Autonomous Republic of Nakhchivan. Graduated from Azerbaijan Polytechnic Institute, Automation and Computer Techniques Department. Doctor of Economy, Professor. Foreign languages: Russian and French.

Member of the Political Council of the New Azerbaijan Party.

